# ELÇİN MEHRƏLİYEV– TƏBİƏT VURĞUNU

Filologiya elmləri doktoru, istedadlı alim, dəyərli elmi əsərlər müəllifi olan Elçin Mehrəliyev maraqlı bədii yaradıcılığı ilə də oxucuların diqqətini cəlb edir. Çünki həqiqi sənət əsərləri o zaman əbədiyaşarılıq qazanır ki, o, elmə söykənmiş olsun. Elçin müəllimin yaradıcılığında bu iki önəmli cəhət vəhdət təşkil edir. O, 40 illik fəaliyyəti boyunca "Azərbaycan gəncləri", "Bakı", "Azərbaycan müəllimi", "Ədəbiyyat və incəsənət", "Ulduz", "Savalan" və bir sıra dövri mətbuat orqanlarında maraqlı elmi məqalələrlə, ədəbi-bədii yazılarla çıxış etmiş və çoxsaylı oxucu auditoriyasının sevimlisinə çevrilmişdir. Elçin Mehrəliyevin çoxşaxəli və zəngin bədii yaradıcılığı onun müxtəlif illərdə nəşr etdirdiyi "Hekayə və nağıllar" (1982), "Pərvin" (1989), "İttiham" (1991), "Hər kəs öz taleyini yaşayır" (1998), "Doxsanıncı illər" (2004), "Tale döyüşü" (2011), "Multikultural mühit və ədəbiyyat" (2020), "Sirli təbiət, ağıllı canlılar" (2020) və başqa kitablarında toplanmışdır.

Elçin Mehrəliyev dövrünün fəal vətəndaşı və ziyalısıdır. O, cəmiyyətdə baş verən mühüm ictimai-siyasi, sosial və ədəbi-mədəni proseslərə həmişə obyektiv münasibətini bildirir. Tədqiqatçı-alimin elə bu günlərdə çapdan çıxan "Multikultural mühit və ədəbiyyat" kitabında çoxəsrlik Azərbaycan ədəbiyyatının keçdiyi zəngin yaradıcılıq yolu multikultural baxış bucağından araşdırılır. Dünya alim, mütəfəkkir, şair və yazıçılarının müdrik, ağıllı fikirlərini təhlil süzgəcindən keçirən tədqiqatçı əsərdə maraqlı qənaətlərə gəlir və oxucunu bu qlobal problemin həlli istiqamətində düşündürə bilir. Eyni zamanda Elçin Mehrəliyev Qafqaz evinin daimi sakinləri olan Azərbaycan xalqının tolerantlıq nümunəsi olduğunu tarixi faktların dili ilə oxuculara təqdim edir. Dinc birgəyaşayışın modeli kimi Azərbaycan dövlətinin bəşəri ideyalarını, çoxsaylı xalqların hüquq və azadlıqlarını qoruyan demokratik bir dövlət olduğunu, sülhsevərlik simvoluna çevrildiyini tarixi məxəzlərə istinad edərək aşkarlayır. Azərbaycan ərazisində yaşayan bütün xalqların mədəniyyətinə, ədəbiyyatına, dilinə hörmət, diqqət və qayğı ilə yanaşıldığını göstərir. Bununla yanaşı, Azərbaycan xalqının öz müstəqilliyini,dövlətçilik ənənələrini qorumaq üçün hansı problemlərlə üzləşdiyini, Qarabağda erməni vandallarının törətdiyi ağlasığmaz vəhşilikləri, cinayətləri və işğalçılıq siyasətini inandırıcı dəlillər, faktlar əsasında açıqlayaraq əsl həqiqətləri çoxmilyonlu oxuculara çatdırmağa müvəffəq olur. Əlbəttə, bu cür tədqiqatların yazılması dövrün zəruri tələbatı kimi ortaya çıxır və belə əsərlər xalqımızın kimliyi, mədəniyyəti, tolerantlığı, bütün xalqlara bəşəri duyğularla yanaşdığımızı göstərən qiymətli bir örnəkdir.

Elçin Mehrəliyev qələmini dramaturgiya sahəsində də sınamışdır. Yazıçının "Məhəbbət qocalmır", "Yurd yeri" əsərləri əsasında televiziya tamaşası hazırlanmışdır. Xüsusilə, onun "Yurd yeri"əsəri dəfələrlə televiziya ilə yayınlanmış və tamaşaçıların rəğbətini qazanmışdır. Əsərdə öz yurd-yuvasından, doğma Qarabağından zorla köçürülmüş, didərgin salınmış soydaşlarımızın torpaq dərdi, yurd sevgisi, vətən həsrəti, təbiətə bağlılığı həssas məqamlar kimi ön plana çəkilir və ictimailəşdirilir. XX əsrin sonlarında xalqımızın zaman-zaman üzləşdiyi bu taleyüklü problemin daha kəskin xarakter aldığı geniş epik lövhələrlə canlandırılır.

Yazıçı ana təbiətin, doğma vətənin gözəlliklərindən, əsrarəngiz və qeyri-adi möcüzələrindən zövq alan vəonu öz əsərlərində əks etdirən sənətkarlarımızdandır. Elçin Mehrəliyevin bədii yaradıcılığının əsas leytmotivini də təbiət mövzusu, onun sirlərlə dolu həyatı təşkil edir. Məhz elə bu vurğunluğun nəticəsidir ki, yazıçı yenicə çapdan çıxmış kitabına "Sirli təbiət , ağıllı canlılar" adını vermişdir. Gənc tədqiqatçı Gülnar Səmanın redaktorluğu ilə işıq üzü görən bu kitabda on beş sənədli hekayə "Təbiət hekayətləri" başlığı altında oxuculara təqdim edilir. Yazıçının tez-tez görü-



şünə getdiyi, mənən rahatlandığı ana təbiətin ecazkar sirlərindən, möcüzələrindən xəbər verən bu əsərlər zəngin və dəqiq müşahidələr əsasında qələmə alınıb. Elçin Mehrəliyevin "Təbiətin qoynunda", "Möcüzəyə bənzər həqiqət", "Arzuedilməz qonşu", "İlan çalan it hansı otu axtarır?", "Bir kəhərin sədaqəti", "Ananın qoç balası", "Ağıllı çolpalar", "Qarı və keçiləri", "Berqutla gözgözə", "Yaralı xoruzun imdad diləməsi", "Bülbülün harayı", "Bozdarın peşmanlığı", "Ayını necə qovaladılar", "Pirat", "Bir gəzintinin təəssüratı" hekayələrinin hər biri oxucunu ana vətənimizi sevməyə, onu göz bəbəyi kimi qorumağa, dərindən öyrənməyə və min bir sehrinə düşməyə səsləyən əsl həyat hekayələridir. Öz oxucusunu təbiətlə ünsiyyətə, onu kəşf etməyə səsləyən yazıçı deyir: "Təbiətə diqqətli münasibətdən yalnız təbiət deyil, insanlar və insan cəmiyyətləri də əvəzsiz fayda görür. Məgər, bəşəriyyət saysız-hesabsız kəşflərinə, ixtiralarına təbiətdən öyrənib nail olmamışdırmı? Elə bir şair, yazıçı tapılarmı ki, təbiətdən ilham almasın, əsərləri insan-təbiət vəhdəti, təbiətin insana dərsləri nöqteyi-nəzərindən düşündürməsin?! Hər birimiz ömür payımızda təbiətin möcüzələri barəsində nə isə yeni bir şey öyrənə bilmirikmi və biz onun sirlərinə vaqif olduqca təəccüb, məftunluq, heyrət hisslərimizi yaranış və yaşayış haqqında dərin mənalı düşüncələr əvəz etmirmi?!" Doğrudan da, təbiətin sirlərinə yaxından bələd olan Elçin Mehrəliyev hekayələrində qoynunda gəzib-dolaşdığı, müşahidə etdiyi məkanların coğrafiyasını sözlə rəsm etmiş, Azərbaycan şəhərlərinin, kəndlərinin, çaylarının, göllərinin, dağlarının xəritəsini cızmışdır. Bu xəritədə hansı məkanlar yer tapmayıb ki?- Bakı, Abşeron, Novxanı, Şabran, Baş əmirxanlı, Qarabağ, Kəlbəcər, Ağcakənd, Tərtər, Şuşa, Laçın, Böyük Qafqaz sıra dağları, Murov, Kəpəz, Nənəş dağı, Ballıqaya, Ceyrançöl, Kür, Qarabulaq, Xan bulağı, Baş Qışlaq, Orta Qışlaq... Bunlar Elçin müəllimin təbiət hekayələrində əksini tapan yerlərin bir qismidir. Yazıçının çoxillik zəngin təcrübəsi, gəzib-dolaşdığı ecazkar yerlərin sıldırım dağları, zirvələrdən durula-durula, saflaşa-saflaşa çağlayıb süzülən dağ şəlalələri, buz bulaqları, yamyaşıl ormanları, sıx meşələri, qeyri-adi gözəllikləri ona sehrkar təbiətin qoynunda yaşayan canlılar aləmini öz oxucusuna bu qədər yaxından tanıtmasına stimul verir və böyük əhəmiyyət kəsb edir. Xüsusilə də, məktəblilərin, tələbələrin maariflənməsi baxımından belə əsərlərin yaranması olduqca zəruri görünür. Görkəmli alim, əsl təbiət bilicisi Qara Mustafayevin çoxsaylı elmi tədqiqatları Azərbaycan təbiətini öyrənməkdə, tanımaqda və sevməkdə necə rol oynamışdırsa, bu gün də Elçin Mehrəliyevin bədii sənətkarlıqla yaratdığı "Təbiət hekayətləri" həmin missiyanı qədirşünaslıqla davam etdirir. Yazıçı vurğunu olduğu ana təbiəti qorumağı, duymağı və dərk etməyi hər bir oxucusuna ünvanladığı fikirlərində də açıqlayır: "...mənim şahidi olduğum, yaxud daim torpaqla, təbiətlə ünsiyyətdə olmuş yaşlı insanların dilindən eşitdiyim heyrətamiz əhvalatlar da maraqlı olduğu qədər düşündürücüdür. Qələmə aldığım bu hekayətləri oxusanız, əmin olacaqsınız ki, qanmaz, vəhşi adlandırdığımız heyvanlar, yaxud ağılsız, hissiyyatsız hesab etdiyimiz quşlar nəinki öz həyatlarını davam etdirməyə qadirdirlər, hətta bir çox nəcib və ağıllı hərəkətləri , dərin duyum və bacarıqları ilə ibrətamiz nümunə göstərməyi bacarırlar. Bitkilər və ağaclarla necə gəldi, cansız əşya kimi davranmaq yaramaz, onlara qayğı ilə yanaşmaq, onları anlamaq vacibdir".

Yazıçı kitabın ikinci fəslini "Təbiətin sirləri haqqında" adlandırır. Bu bölmədə dahi şəxsiyyətlərin təbiət haqqında aforizmləri, hikmətli deyimləri yer alır. Qədim Şaman hikmətlərindən başlayaraq Spinoza, Höte, Balzak, Karl Yaspers, E.Paul Zehr, Albert Eynşteyn, Cəvahirləl Nehru, Marsel Prusta, Nizami Gəncəvi, Hüseyn Cavid, Səməd Vurğun və başqa korifeylərin insan və təbiət, bu iki məfhumu bir-birinə bağlayan qeyri-adi güc haqqında dəyərli kəlamlarına müraciət olunur: "Təbiət əşqi insanın ümidlərini boşa çıxarmayan yeganə əşqdir" (Balzak), "Təbiətin tacı sevgidir. Ancaq sevgi yolu ilə ona yaxınlaşa bilərsiniz" (Höte), "Təbiət insan olmadan da yaşayar, amma insan təbiət yox olduqdan sonra yaşaya bilməz" (E.Paul Zehr), "İnsan...təbiəti özünə təqdim edilmiş bir nemət hesab edir, kainat dediyimiz bütün içərisində özünü digər canlılardan üstün tutur. Ətraf mühitdən istədiyi kimi istifadə edir: yıxır, yox edir. Halbuki insan övladı bu kainatda zəncirin yalnız kiçik bir hissəsidir" (Albert Eynşteyn). Elçin Mehrəliyev bu cür sərrast ifadələrlə, ətraf aləmə sevgidən süslənmiş aforizmlərlə təbiətə müdaxilənin yolverilməz olduğunu, onun hər çiçəyini, ağacını, daşını belə qorumağın böyük vətəndaşlıq yanğısı, insani və mənəvi borc olduğunu bir sənətkar həssaslığı ilə oxuculara təlqin edir. Hətta o, Hüseyn Cavidin "Şeyx Sənan", Səməd Vurğunun "Vaqif" dramlarından, Sergey Yeseninin "Quşların yuxusu", Rəsul Rzanın "Sədaqət", "Nərgiz", Məmməd Arazın "Əlvida dağlar!", "Göygöl" və başqa əsərlərdən seçmə nümunələr verməklə təbiətin həmişə ədəbiyyatın əbədi və əzəli mövzusuna çevrildiyini, onun ecazkar gözəlliyinin toxunulmazlığını bir daha vurğulamaq istəmişdir:

Gəlin, təbiəti biz də düşünək,
O özü hər şeyi düşünən kimi
...Ana təbiəti itirsək əgər,
Bir ev yox, bir kənd yox,
bir dünya batar
(Hüseyn Arif)

Ustad Hüseyn Arifin təbirincə desək, "dünyanın batmaması" üçün ana təbiəti, doğma Azərbaycanımızı gəlin, Elçin müəllim kimi sevək, qoruyaq! Çünki vətən torpağının gözəlliklərini, bütün varlığı ilə bağlandığı ana yurdun möcüzələrlə dolu, insanı valeh edən bu ecazkar, sehrkar aləmini tərənnüm edən yazıçının vətən məhəbbəti də elə gücünü, qüdrətini üzərində gəzdiyi bu torpaqdan almışdır:"Ağcakənddən yuxarı Murova, yaxud Kəpəzə doğru qalxdıqca meşəli dağlar, dərələr daha da sərinləşir, artıq Ballıqayaya, Buzluğa, yaxud Baş Qışlağa çatanda üşüyürsən...Çiçəkli dağ döşləri, yamyaşıl yamaclar gah göydə parlayan günəşin gözqamaşdırıcı şüalarına, gah da dərədən qalxan rütubətli çənə, dumana bürünür. İstər-istəməz adamın qəlbində əlvan naxışlı xalıya bənzəyən yamacları gəzib-dolaşmaq, sayı-hesabı bilinməyən rəngbərəng çiçəklərdən dəstə bağlamaq , moruq, çiyələk, kəklikotu, qantəpər, daş yarpızı yığmaq, sıx meşə ağaclarının yamyaşıl yarpaqları arasında köz kimi qızaran zoğal, rəngbərəng yemişan, "iynəli" itburnu kollarından narıncı həmərsin, tikanlı böyürtkən kolluqlarından qara böyürtkən giləmeyvələri toplamaq həvəsi oyanır". Bu cür real, canlı lövhələr Elçin Mehrəliyevin hekayə yaradıcılığında özünəməxsus yer tutur və onu istedadlı bir qələm sahibi , dərin təfəkkürə malik yazıçı kimi çağdaş Azərbaycan nəsrində qərarlaşdırır.

Elçin Mehrəliyev yaradıcılığının mövzu dairəsi, problematikası, ideya zənginliyi, dili və üslubu həmişə ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. Bəkir Nəbiyev, Nizami Cəfərov, Camal Mustafayev, Şamil Salmanlı, Vaqif Yusifli və başqa görkəmli elm adamları Elçin Mehrəliyev yaradıcılığını müxtəlif prizmadan tədqiqata cəlb etmiş, onun çağdaş ədəbiyyatımızdakı yerini, mövqeyini müəyyənləşdirmiş və sənət aləmində orijinal qələm sahibi, alimliyi ilə yazıçılığı bir arada birləşdirən istedadlı yazıçı kimi dəyərləndirmişlər.

Elçin müəllim! Uşaqlıq və gənclik illərinizin xatirələri dolaşan,kövrək duyğularınıza məlhəm olan, həsrətini çəkdiyiniz cənnət Qarabağımız Sizin sevə-sevə vəsf etdiyiniz Vətən torpağımızdan ayrı düşməsin!

***2020***



*Gülbəniz BABAYEVA,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru*